# Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır

## YAP Nəsimi rayon təşkilatının təşkilatçılığı ilə partiyanın yaranmasının 23 illiyi münasibətilə bu mövzuda tədbir keçirildi

Nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatı kimi nüfuz qazanan Yeni Azərbaycan Partiyasının yaranmasından 23 il ötür. Bir-birindən əhəmiyyətli uğurları ilə ötən 23 ili zənginləşdirən Yeni Azərbaycan Partiyası əbəs yerə xalqın partiyası kimi dəyərləndirilmir. Partiyanın yaranmasının 23 illiyinə həsr olunan tədbirlərdə keçilən yola nəzər salınır, bu fikir bir daha qeyd edilir ki, tutduğu yola, siyasətə sadiq olan partiyaya milyonların sevgisi şəksizdir.

Dünən Azərbaycan Dillər Universitetində YAP Nəsimi rayon təşkilatının təşkilatçılığı ilə "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda keçirilən tədbir də bu silsilədən idi.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirdi ki, bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı mövqeyə malik olan Yeni Azərbaycan Partiyasının hansı zərurətdən yarandığını təhlil etmək hər zaman gündəmdədir. Zamanın tələbi, xalqın istəyi ilə yaranan Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın keçdiyi inkişaf yolunun bələdçisidir. Partiya dövlətə, xalqa xidməti fəaliyyətinin əsas prinsipi kimi qəbul edərək, atdığı addımları ilə cəmiyyətdə nüfuzunu daha da artırır, sıralarını kəmiyyət və keyfiyyət baxımından zənginləşdirir. 1992-ci il noyabrın 21-də Azərbaycanın əksər bölgələrindən cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə təsis konfransını keçirən partiyanın bu gün sıralarında 670 minə yaxın üzvün birləşməsi Heydər Əliyev ideyalarına sədaqətin, bu xətti uğurla davam etdirən Prezident İlham Əliyevin siyasətinə inamın göstəricisidir. Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rola malik olan Yeni Azərbaycan Partiyasının 23 illik tarixi yolda əldə etdiyi uğurlara qısa baxış ulu öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikrinin böyük əsaslara söykəndiyini təsdiqləyir. Uğurlarımızın ümumiləşdirilmiş ifadəsi olaraq deyə bilərik ki, Heydər Əliyev siyasəti Azərbaycanın qarşısında yeni-yeni imkanlar açır, hədəflər müəyyənləşdirir. Yeni Azərbaycan Partiyasının hər bir üzvü bu hədəflərə çatmağa öz töhfəsini verməyə səy göstərir.










Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin sədr müavini Bahar Muradova qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti onun adına uyğundur. Yəni, partiya Yeni Azərbaycanın quruculuğu ilə məşğuldur. YAP-ın Proqram və Nizamnaməsində də hədəf məhz bu cür təsbit edilib - yeni, müstəqil Azərbaycan. Bizim ilk şüarımız bu idi.

Bildirildi ki, bu gün müstəqil Azərbaycan daim yeniləşir, modernləşir, inkişaf edir. Qarşımıza yeni hədəflər çıxır, qarşıya yeni məqsədlər qoyulur. YAP-ın qarşısında duran hədəflər müstəqil Azərbaycanın qarşısındakı hədəflərdir. Artıq arxada qalan 1 noyabr parlament seçkiləri Yeni Azərbaycan Partiyasının yeni hədəflərə doğru inamla irəlilədiyini bir daha nümayiş etdirdi. Hər dövrün öz tələbi, öz çağırışı var. Müstəqil Azərbaycanımız, ölkənin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası bu çağırışları yüksək səviyyədə həyata keçirməklə yeniyeni hədəflərin müəyyənləşdirilməsinə yol açır.

B.Muradova diqqətə çatdırdı ki, partiyamızın timsalında çoxşaxəli və səmərəli fəaliyyət sayəsində ildən-ilə yeni nailiyyətlər əldə edilir, ölkəmizin inkişafına mühüm töhfələr verilir. Partiyanın beynəlxalq əlaqələrinin genişlənməsi isə Azərbaycanın dünyada mövqeyinin möhkəmlənməsinə əhəmiyyətli töhfə kimi qiymətləndirilir. YAP təkcə Azərbaycanın deyil, eyni zamanda, regionun ən güclü və nüfuzlu siyasi partiyasıdır. Partiyamıza daim böyük etimad göstərilir, bunun müqabilində isə YAP xalqımıza sonsuz inam aşılayır. Beləliklə, qələbələr partiyası olan YAP fəaliyyət göstərdiyi müddət ərzində çox böyük nailiyyətlər əldə edib, regionun ən güclü partiyasına çevrilməyi bacarıb. Məhz bütün bunların sayəsində YAP ölkədə keçirilən bütün seçki proseslərində böyük qələbə qazanıb, qələbələr tarixinə yeni-yeni səhifələr ələvə edib.

Bahar Muradova 23 illik tarixi bir yol keçən Yeni Azərbaycan Partiyasının uğurlarını bir çıxış çərçivəsində qeyd etməyin mümkünsüzlüyünü bildirərək, vurğuladı ki, ümumi rəy budur ki, xalqın istəyi, zamanın tələbi ilə yaranan partiya xalqın dəstəyini qazanaraq, daim inamla irəliləyir.

YAP Siyasi Şurasının üzvü, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının yaradılmasının 23 illiyi müstəqil Azərbaycanın tarixində əhəmiyyətli hadisədir. Bu 23 il keçmişə və gələcəyə baxışdır. Ötən dövrdə Azərbaycan düzgün qurulan siyasətin sayəsində inkişaf, tərəqqi yolunda inamla irəliləyərək, bu gün beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas məkana, eyni zamanda, iqtisadi möcüzələr ölkəsinə çevrilib. Bu uğurların fonunda Azərbaycanın müstəqilliyinin ilk illərində yaşadığı ağır durum aydın şəkildə görünür. O illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin yoxluğu ucbatından Azərbaycan öz müstəqilliyini itirmək, dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaradılmasını şərtləndirən əsas amillər də məhz həmin dövrün reallıqları idi. Ümumilikdə Azərbaycan xalqının istəyinin ifadəsi olan 91 nəfər ziyalının ulu öndər Heydər Əliyevə ünvanladığı müraciətdə o illərin sosial-iqtisadi, siyasi durumu ətraflı şəkildə qeyd edilirdi. Müraciətdə deyilirdi ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar. Ümummilli lider Heydər Əliyev bu müraciətə cavabı ilə müstəqil dövlətimizin gələcək taleyini müəyyənləşdirdi.

A.Əsgərov Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün ölkəmizin, eyni zamanda, Yeni Azərbaycan Partiyasının əldə etdiyi uğurlardan bəhs etdi. Bildirdi ki, bu gün Azərbaycan böyük quruculuq meydançası-nı xatırladır.

Çıxışlarda bildirildi ki, bu tərəqqi hər bir Azərbaycan vətəndaşında qürur hissi yaratmalıdır. Azərbaycanı qarşıdakı illərdə daha möhtəşəm uğurlar gözləyir. Yeni Azərbaycan Partiyası uğurlu fəaliyyəti ilə dövlətin modernləşmə, yeniləşmə siyasətinə dəstəyini təsdiqləyir. Bu gün inkişafın Azərbaycan modelinin mövcudluğunun beynəlxalq səviyyədə təsdiqlənməsi ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətə və bu xəttin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə söykənir.

O da vurğulandı ki, YAP-ın yaradılmasının 23 illiyinin ən başlıca mənası partiyanın qarşıya qoyduğu amalların reallaşmasının nəticəsi kimi bugünkü Azərbaycandır. YAP öz üzərinə götürdüyü vəzifəni, insanların ona bağladığı ümidləri doğruldaraq Azərbaycan vətəndaşlarının ulu öndər Heydər Əliyevdən və onun yaratdığı partiyadan gözlədikləri nə varsa, hər birini həyata keçirə bildi. Ötən əsrin 90-cı illərinin əvvəllərində ictimai-siyasi sabitliyin təmin edilməsi, xaos və anarxiyanın aradan qaldırılması xalqımızın istək və arzuları idi. Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdaraq bunları həyata keçirdi. Sonrakı mərhələdə iqtisadi sabitliyin təmin edilməsi, ölkənin tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi. Dahi şəxsiyyət müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri də müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Xalqın rifahının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atıldı. Sonrakı dövrlərdə digər məsələlər - Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması və s. addımlar atıldı. Bu kimi addımlar Yeni Azərbaycan Partiyasının 23 ildə yaşadığı ayrı-ayrı mərhələlərdir. Hazırda bu yol Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Gənclər adından YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Nərgiz Məmmədova çıxış edərək Azərbaycan dövlətinin, Yeni Azərbaycan Partiyasının gənclərə diqqət və qayğısından geniş bəhs etdi. Bildirdi ki, bu qayğı gənclərə öz potensial imkanlarını ortaya qoymaq üçün stimul verir. Azərbaycan gəncliyi Yeni Azərbaycan Partiyasının sıralarında təmsil olunmaqdan, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, gələcəyə inamla irəliləməkdən böyük qürur duyur.

Sonda partiya sıralarına yeni daxil olanlara üzvlük vəsiqəsi təqdim olundu. YAP Nəsimi rayon təşkilatının həyata keçirdiyi layihələrdə fəal iştirak etmiş ərazi ilk partiya təşkilatları mükafatlandırıldı. Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu inkişafını əks etdirən videoçarx nümayiş etdirildi.

**Nilufər Mustafaqızı,**
**Mənsumə Babayeva,**
***"İki sahil"***